## *Zərifə Ağayusifqızı*

*Səmədova Zərifə Ağayusif qızı, 1978-ci ilin 10 avqustunda İsmayıllı rayonunun, Maçaxı kəndində müəllim ailəsində doğulub. İxtisasca ibtidai sinif müəllimidir. Hələ körpə yaşlarından elmə, ədəbiyyata böyük marağı olub. Çox az yaşlarından şerlər yazmağa başlayıb. "İsmayıllı yazarları", Aşıq Pəri Qadın Yazarları Birliyinin, Dəmir Yumruq ALFA-A Cəmiyyətinin üzvüdür. Şəhidlərə həsr etdiyi 30-dan çox məqalənin, "İsmayıllı Şəhidləri" poemasının müəllifidir. Aşıq Pəri Atalogiyasında, almanax və bayatı kitablarında, "İsmayıllı xəbrləri", "Bütöv Azərbaycan", "Mən Şirvanın Səsiyəm" antalogiyasında, "Xəzan" və "Əsrin ziyalıları" jurnalında, "Yeni təfəkkür" qəzetində silsilə şeirləri, məqalələri yer alıb. Ən böyük arzusu Azərbaycan Yazıçılar Birliyinə üzv olmaqdır.*

### *Antiterror şəhidi Cahanın aziz xatirəsinə*

Öz sevgindən torpaq üçün keçmisən,
Bayrağına diz çöküb, and içmisən.
Məhəbbəti Vətən deyib seçmisən,
Ay ulduzla ötüşəndə gəl, Cahan!

Kim sevməz ki, söylə, əziz anasın,
Bala dərdi ürəyinin yarası.
Yollar səni axtaranda gəl, Cahan!
Anan səni çağıranda gəl, Cahan!

Yaman olar əziz qardaş acısı,
Dözməz dərdə bir qardaşın bacısı.
Açılmasa, bir gün bacı qapısı,
Haqq qapısı açılanda gəl, Cahan!

Köməyinə gələr qardaş qardaşın,
Olmaz ondan yaxın özgə sirdaşın.
Səni gəzər, arzulayar qardaşın,
Daş çınqılla görüşəndə gəl, Cahan!

Dağlar aşıb, yol ötəndə gəl, Cahan!
Atan sənlə görüşəndə gəl, Cahan!
Sellər, sular çağlayanda gəl, Cahan!
Zərifələr ağlayanda gəl, Cahan!

### Ürəyimdə Vətən eşqi

*Zərifə xanım Əliyevanın aziz xatirəsinə*

Mən gözlərə nur paylayan
Bir sonalar sonasıyam.
Neçə-neçə qaranlığa
işıq saçan bir xaqanın anasıyam.
Vətəninə dəyər verən
Nər oğlumun and yeridi.
Bəsdir daha torpağımda
Yağı düşmən, yad yeridi.
Dağ vüqarlı, polad güclü,
Qorxmaz igid bu oğlumun adı İlham.
Ürəyimdə Vətən eşqi, yurd sevgisi.
Hünəriylə göyə qalxdı
Qarabağda cəngi səsi.
Odur mənim ərən oğlum,
Alışdırdı külə dönən ocağımı.
O, qaldırdı zirvələrə
Əlləriylə bayrağımı
Zərifəyəm, fəxr edirəm
Yenilməyən ordum ilə
Azərbaycan - ana yurdum,
Heydər oğlu İlham ilə.